www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1774) 31 avqust 2023-cü il



## Azərbaycanın Birinci vitse-prezidentinin Vətənə və xalqa xidmət nümunəsi olan həyat yolu

**Birinci xanım Mehriban Əliyeva xalqın ona olan sevgisi, inamı və etimadını ən böyük mükafat hesab edir**

səh. 2

### Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirləri Şuşada görüşəcək

səh. 3

### ABŞ universitetinin professoru ATU-nun qonağı olub

səh. 3

### ATU-nun Əsaslı Kitabxanasının fondu genişləndirilir və elektronlaşdırılır

səh. 8



### Əcnəbi tələbələr ATU-da istehsalat təcrübəsindən razı qalıblar

Dünyanın müxtəlif ölkələrindən gəlmiş tələbələrə sertifikatlar verilib

səh. 4

### Tələbələrimizin yataqxana ilə təminatında problem yoxdur

*Dosent Cahangir Qasımov: "Binalarda tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb"*

səh. 3

### Tibb bacısının ali təhsilli olması müasir dövrün tələbidir

*ATU-da 2020-ci ildən bu ixtisas üzrə təhsil həyata keçirilir*

səh. 4



### Vətən səmasında ulduzdu şəhidlər

ATU-nun Milli Qəhrəman məzunları: Çingiz Mustafayev, Muxtar Qasımov, Gültəkin Əsgərova

səh. 6

# Azərbaycanın Birinci vitse-prezidentinin Vətənə və xalqa xidmət nümunəsi olan həyat yolu

## Birinci xanım Mehriban Əliyeva xalqın ona olan sevgisi, inamı və etimadını ən böyük mükafat hesab edir



**Azərbaycanın Birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın keçdiyi parlaq həyat yolu Vətənə və xalqa xidmət nümunəsidir. Hazırda misilsiz inkişaf mərhələsini yaşayan respublikamızın qazandığı uğurlara dəyərli töhfələr verən Mehriban xanım ictimai-siyasi həyatda, dönməz xarakter alan islahatlar prosesində fəal iştirakı, milli mədəniyyətimizin dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ilə xalqımızın sevimlisinə çevrilib.**

Onu haqlı olaraq Azərbaycan humanizminin simvolu adlandırırlar. Şəhid ailələrinə, qazilərə xüsusi diqqət, valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərdiyi analıq qayğısı bunun bariz nümunələridir. Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli hərrəyliyə xidmət edən çağırışları daim minnətdarlıq duyğuları ilə xatırlanır.

Milyonların sevgisini qazanmış Mehriban xanım Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı kimi bu gün onunla çiyin-çiyinə Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edir. Onun Vətən və xalq qarşısında daha bir önəmli xidməti Ulu Öndərin ideyalarının həyata keçirilməsi sahəsində göstərdiyi aramsız səylər və çoxsaylı layihələrdir. Sərhəd tanımayan xeyirxahlığı, nəcibliyi Birinci xanım Mehriban Əliyevaya təkcə Azərbaycanda deyil, yaxın və uzaq xaricdə milyonların məhəbbətini qazandırıb. O, həmçinin Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində yorulmadan çalışır.

Doğma Vətənin ən böyük təəssübkeşlərindən biri olan Mehriban Əliyeva Birinci xanım adını da şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir. Sadəliyi, səmimiliyi, mehribanlığı, nəcibliyi, humanistliyi, gözəl aurası ilə ətrafında xoş atmosfer yaradan Mehriban xanım haqqında "Washington Times" qəzeti belə yazır: "Azərbaycanın Birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır".

AZƏRTAC Mehriban Əliyevanın mənalı və şərəfli həyat yolunun, çoxşaxəli ictimai-siyasi fəaliyyətinin, insanpərvərlik, xeyirxahlıq missiyasının bəzi məqamlarına nəzər salır.

Mehriban xanımın ötən əsrin bütün mürəkkəbliklərinə baxmayaraq, mənəvi dəyərlərə, milli ənənələrə sadiq qalan ziyalı ailəsində böyüməsi onun bir şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərib. Sonradan taleyi Azərbaycanın tanınmış bir ailəsinə bağlanıb - Heydər Əliyevin və Zərifə Əliyevanın gəlini olub. "Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, birləşdirən bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur", – söyləyən Mehriban xanım qadının ailədəki rolu və ailəyə münasibətini hər zaman önə çəkib.

"Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda, çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır", - Prezident İlham Əliyevin söylədiyi bu fikirlər isə Birinci vitse-prezidentin işgüzar və insani keyfiyyətlərini çox dəqiqliklə ifadə edir. O, həqiqətən də milyonların qəlbində ümid çırağına, xeyirxahlıq ünvanına çevrilib.

Mehriban Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondu iyirmi ilə yaxındır ki, Ulu Öndərin ideyalarının reallaşdırılması istiqamətində əvəzsiz xidmətlər göstərir. Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, sosial rifaha hesablanmış addımlar, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına yönəlmiş layihələrə verilən dəstək, xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilməsi üçün göstərilən aramsız səylər bu qəbildəndir. Heydər Əliyev Fondunun prezidenti bütün qərarları ilə millidir: Vətəninin tərəqqisinə xidmət edir, ölkəsinin mədəniyyətinin, təhsilinin, idmanının inkişafı üçün yorulmadan çalışır. Fondun xətti ilə hətta respublikamızın ən ucqar nöqtələrində inşa və bərpa edilən məktəb binaları, tibb məntəqələri buna misal ola bilər. Bu məqsədlə bir çox proqramlar və layihələr həyata keçirilib. Fond ölkəmizin beynəlxalq nüfuzunun artırılması istiqamətində də fəal iştirak edib və edir. Onun həyata keçirdiyi layihələr həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda böyük rəğbətlə qarşılanır.



Eyni zamanda, yer üzündə sülh və təhlükəsizlik, sivilizasiyalararası dialoq mühitinin formalaşması, tarixi-mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə Mehriban Əliyevanın verdiyi şəxsi töhfələr, etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi sahəsində Azərbaycanın zəngin təcrübəsi dünya ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir və öyrənilir. Mehriban xanım multikultural dəyərlərin və milli mədəniyyətimizin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında yorulmadan fəaliyyət göstərir. Məhz onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamançа simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Bundan başqa, Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi idi. "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam", - həmin vaxt dediyi bu sözlərə sadiq qalaraq dövlətçiliyə layiqincə xidmət edir, üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. Prezidentin də, ona inanan, ümid bəsləyən insanların da etimadını layiqincə doğruldur. O, gündəlik fəaliyyətində mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, milli-mənəvi dəyərləri daim uca tutur.

Birinci vitse-prezident təyin olunarkən Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı kimi milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürən Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin problemlərinin həlli xüsusi yer tutur. Təsadüfi deyil ki, o, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrin rifahının yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrinin və qazilərimizin qayğıları ilə yaxından maraqlanır. Yaralanmış hərbçilər Fondun xətti ilə müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin müharibə zamanı sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib.

Postmüharibə dövründə Qarabağa çoxsaylı səfərlər, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, Şuşada dünyaya səs salan möhtəşəm "Xarıbülbül" musiqi festivalının təşkili Birinci xanımın xidmətləri sırasında müstəsna yer tutur. Yaxud Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib.

Səhiyyə sahəsinə gəlincə, Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Birinci vitse-prezidenti köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında tez-tez görmək olar. Onlar Mehriban Əliyevaya pənah yeri kimi baxır və öz ümidlərində yanılmırlar. Bütün bunlar Azərbaycan cəmiyyətinin sosial həyatında xeyriyyəçilik və mesenatlıq ənənələrinin yenidən canlanmasına səbəb olub. Mehriban Əliyeva insanlara xeyirxahlıq, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi şəfqət hissləri aşılayıb. Belə ki, aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu bu istiqamətdə də mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaradan Mehriban xanım Əliyeva özünün xeyriyyəçilik fəaliyyəti ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Artıq Azərbaycanda ictimai həyatın xüsusi bir bölməsi sayılan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf etməkdə və genişlənməkdədir.

Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində Mehriban xanımın təşəbbüsü ilə məqsədyönlü iş aparılır. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb.

Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, Formula 1, birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu üzə çıxardı. Respublikamızda bu mötəbər beynəlxalq tədbirlərin möhtəşəm təşkili hətta inkişaf etmiş ölkələri heyran qoydu. Təsadüfi deyil ki, o, idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətləri müqabilində Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalına layiq görülüb.

Birinci xanımın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

Mehriban xanım xalqın sevgisi, etimadı ilə öz ömür kitabını yazmaqda davam edir, onu ildən-ilə yeni parlaq və mənalı səhifələrlə zənginləşdirir.

**Özbəkistan Respublikasının Səmərqənd şəhərində avqustun 16-17-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin səhiyyə nazirlərinin III iclası və Türk Tibb Dünyası Konqresi keçirilib.**

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirləri Şuşada görüşəcək




Türk Dövlətləri Təşkilatının və Özbəkistan Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbirdə TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri, ali tibb təhsili qurumlarının rəhbərləri, həmçinin müxtəlif ölkələrdən dəvət olunmuş elm adamları iştirak ediblər. Ölkəmiz səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Çıxışlar və müzakirələrdən sonra Türk Tibb Dünyası Konqresinin yekun sənədi - Birgə Bəyannamə qəbul edilib. Sənəddə türkdilli dövlətlərin Farmakopeyasının və Qaydalarının tətbiqi sahəsində əməkdaşlığın gücləndirilməsi, habelə fövqəladə hallar zamanı humanitar və tibbi yardımın göstərilməsi öz əksini tapıb.

Həmçinin yoluxucu xəstəliklərlə mübarizə üzrə TDT-nin birgə Fəaliyyət Planı layihəsinin hazırlanması, təşkilat çərçivəsində dərman vasitələrinin və tibbi texnikanın birgə istehsalı imkanlarının nəzərdən keçirilməsi, eyni zamanda, Türk Dövlətləri Təşkilatına üzv ölkələr tərəfindən tibb sahəsində verilmiş diplomaların qarşılıqlı tanınması daxil edilib. Bundan əlavə, Bəyannamə TDT-yə üzv və müşahidəçi dövlətlərin iştirakı ilə sağlamlıq turizmi sahəsində birgə şəbəkənin yaradılması, Vahid Tibb Məlumat Lüğətinin hazırlanması və digər məsələləri də əhatə edir.

O cümlədən, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının keçiriləcəyi məkanla bağlı bir sıra təkliflər daxil olub. Baş katib Kubanıçbek Ömüralıyev Səmərqənd Bəyannaməsinə əsasən, TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının gələn il Azərbaycanın Şuşa şəhərində keçiriləcəyini elan edib.

# Tədris Cərrahiyyə Klinikasına yeni direktor təyin edilib



**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə Cavid Nazim oğlu Paşayev Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının direktoru vəzifəsinə təyin olunub.**

Cavid Paşayev 2001-2007-ci illərdə ATU-nun Müalicə-profilaktika fakültəsində müalicə işi üzrə təhsil alıb. O, 2007-2008-ci illərdə Kliniki Tibbi Mərkəzdə "Anesteziologiya-reanimasiya" ixtisası üzrə internatura keçib. 2009-2010-cu illərdə Avrasiya Klinikasında həkim-anestezioloq, 2011-2014-cü illərdə isə Mərkəzi Neftçilər Xəstəxanasında anestezioloq-reanimatoloq olaraq çalışıb. C.Paşayev 2014-2021-ci illərdə fəaliyyətini ATU-nun Anesteziologiya-reanimasiya şöbəsinin müdiri kimi davam etdirib. O, 2018-2021-ci illərdə ATU-nun Anesteziologiya və reanimatologiya kafedrasında assistent, 2021-2022-ci illərdə isə Bakı Sağlamlıq Mərkəzində Baş həkimin müavini, Anesteziologiya və reanimasiya şöbəsinin müdiri vəzifələrində çalışıb. 2022-2023-cü illərdə Cavid Paşayev "Yeni Klinika" direktorunun müalicə işləri üzrə birinci müavini, direktor vəzifələrini icra edib.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının yeni təyin olunmuş direktoru iyulun 24-də kollektivə təqdim olunub.

Xatırladaq ki, C.Paşayev Vətən müharibəsində yaralanan hərbi qulluqçulara tibbi yardım göstərilməsində könüllü olaraq aktiv iştirak edib, eyni zamanda COVID-19 pandemiyasına qarşı mübarizədə xidmətlərinə görə "Fəxri Fərman" və "Səhiyyə Əlaçısı" döş nişanı ilə təltif olunub.

# Prorektor aralıq qiymətləndirmənin gedişatını izləyib



**Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev İmtahan Mərkəzində keçirilən aralıq qiymətləndirmənin gedişatını izləyib.**

Şəraitlə yaxından tanış olan professor, eyni zamanda tələbələrin hər hansı problemlə üzləşib-üzləşmədikləri ilə maraqlanıb. Prorektor imtahanın yaxşı təşkil edildiyini, cədvəllərin qaydasında olduğunu bildirib.

Qeyd edək ki, bu il üzrə cəmi 48 nəfər yay imtahan sessiyasında iştirak edib.

# ABŞ universitetinin professoru ATU-nun qonağı olub



**Azərbaycan Tibb Universitetində ABŞ-ın Georgetown Universitetinin Tibb Mərkəzi, Farmakologiya və Fiziologiya kafedrasının professoru Yuichiro Justin Suzuki ilə görüş keçirilib.**

Azərbaycan Tibb Universitetində ABŞ-ın Georgetown Universitetinin Tibb Mərkəzi, Farmakologiya və Fiziologiya kafedrasının professoru Yuichiro Justin Suzuki ilə görüş keçirilib.

Görüş zamanı qonağa Azərbaycanda tibb elminin və tibb təhsilinin inkişafı sahəsində dövlət səviyyəsində görülən işlər, həmçinin ATU-dakı tədris prosesi, universitetin beynəlxalq əlaqələri barədə ətraflı məlumat verilib.

Professor Yuichiro Justin Suzuki də öz növbəsində ATU rəhbərliyinə diqqət üçün təşəkkür edib. Daha sonra Georgetown Universiteti ilə ATU arasında gələcək əməkdaşlıq, birgə elmi araşdırmaların aparılması və digər məsələlər müzakirə olunub.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Sitologiya, embriologiya və histologiya kafedrasının dosenti Günel Əyyubova və başqaları iştirak edirdilər.

# ATU-nun nümayəndəsi Çində beynəlxalq tədbirlərdə iştirak edib



**Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının müdir müavini, dosent Müşfiq Orucov Çin Xalq Respublikasında səfərdə olub.**

O, Şenyan şəhərində yerləşən Çin Tibb Universitetinin əsas təşkilatçılığı ilə keçirilmiş "Bir kəmər, bir yol" Beynəlxalq Tibb Təhsili Alyansının (BRIMEA) İdarə Heyətinin iclasında, BRIMEA-2023 təhsil konfransında və Çin Tibb Universiteti-FAIMER Regional İnstitutunun 10 illik yubiley tədbirində iştirak edib. İdarə Heyətinin iclasında alyansın ötən ildə gördüyü işlər barədə hesabat dinlənilib və yeni üzvlərin qəbulu həyata keçirilib. Təhsil konfransında Çinin müxtəlif əyalətlərinin tibb universitetlərinin nümayəndələri ilə yanaşı, ABŞ, Türkiyə, Cənubi Afrika Respublikası, Filippin, Qazaxıstan, Qırğızıstan, Pakistan və Belarusdan olan tibb təhsili ekspertlərinin ümumən 17 çıxışı təqdim edilib.

Səfər çərçivəsində Müşfiq Orucov Çin Tibb Universitetinin prezidenti, professor Wang Zhenning tərəfindən qəbul edilib. M.Orucov Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin salamlarını və konfransla bağlı təbriklərini çatdırıb, universitetlərimizin BRIMEA çərçivəsində əməkdaşlığının əhəmiyyətini qeyd edib. Professor W.Zhenning ATU-nun tibb təhsili üzrə belə bir nüfuzlu beynəlxalq tədbirdə təmsil olunmasından məmnunluğunu ifadə edib, alyans daxilində olan tibb təhsili müəssisələrinin qarşılıqlı əməkdaşlıq perspektivlərindən danışıb.

# Tələbələrimizin yataqxana ilə təminatında problem yoxdur

## Dosent Cahangir Qasımov: "Binalarda tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb"

**Məlum olduğu kimi, ali təhsil müəssisələrində tələbələrin ən əsas ehtiyaclarından biri yataqxana ilə bağlıdır. Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun sözlərinə görə, bu baxımdan ATU-da problem yoxdur. Belə ki, universitetin yataqxanaya ehtiyacı olan tələbələrinin hamısı yerləşdirilib.**



C.Qasımov qeyd edib ki, ATU-nun yataqxanalarında tələbələr üçün xüsusi istirahət guşələri, oxu zalları, məişət otağı və 4 kabinəli hamam fəaliyyət göstərir. Bunlardan əlavə, yataqxanalar daimi olaraq wi-fi internet sistemi ilə təmin olunub: "Universitetimizin yataqxanalarının müsbət cəhəti onların tədris binalarına yaxın və tam təmirli olmasıdır. Buna görə də tələbələr yataqxanadan dərsə getməyə cəmi 4-5 dəqiqə vaxt sərf edirlər. Hazırda ATU-da 4 yataqxana fəaliyyət göstərir, 3 saylı yataqxana isə əsaslı təmirə dayandırılıb. Yataqxanalarımızın ümumi tutumu 1160 nəfərə yaxındır".

Yataqxanalarda yerləşmə və daxili nizam-intizam qaydalarından söhbət açan C.Qasımov bildirib ki, 1 və 2 saylı yataqxanalarda Azərbaycan vətəndaşı olan qızlar, 6 saylı yataqxanada isə oğlan tələbələrimiz yaşayır. 5 saylı yataqxana isə əcnəbi tələbələrin ixtiyarına verilib: "Tədris ilinin başlaması ilə əlaqədar hər il sentyabr ayının 1-dən etibarən yataqxanaya müraciət etmiş tələbələrimizin yerləşdirilməsi prosesi başlayır. Azərbaycan vətəndaşı olan oğlan və qız tələbələrimiz 100% yataqxana ilə təmin olunurlar. 2013-cü ildə universitetimiz özünümaliyyələşdirməyə keçdikdən sonra Böyük Elmi Şuranın qərarı ilə yataqxanada yaşamaq üçün müəyyən pul vəsaiti köçürülür. Tələbənin aylıq yataqxana haqqı yataqxanadan və otağın tutumundan asılı olaraq dəyişir. Şəhid ailə üzvü və valideyn himayəsindən məhrum olan tələbələr isə yataqxanaya ödənişsiz yerləşdirilir. Qazi övladlarına və I qrup əlil valideyni olan tələbələrə də müəyyən güzəştlər edilir. Universitetin yataqxanaları ATU-nun rektorunun, Həmkarlar İttifaqı Komitəsinin və eləcə də təsərrüfat şöbəsinin nəzarəti ilə daim diqqət mərkəzində saxlanılır".

Məlumat üçün deyək ki, ATU-nun tələbə yataqxanalarının tikintisinin əsası XX əsrin 30-cu illərində bu ali tibb təhsili müəssisəsinin o zamankı rektorlarından biri, görkəmli dövlət və elm xadimi, ölkəmizdə səhiyyə təşkilatçısı professor Əziz Əliyev tərəfindən qoyulmuş və sonrakı illərdə proses davam etdirilmişdir. 1941-45-ci illərdə baş vermiş İkinci Dünya müharibəsi zamanı ATU-nun 1 və 2 saylı tələbə yataqxanalarından təxliyə hospitalı kimi istifadə olunmuşdur. Bu xeyirxah təşəbbüs Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə də inkişaf etmiş və daha 4 müasir tipli yataqxana binası tikilərək tələbələrin ixtiyarına verilmişdir. Son illərdə isə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yerli və xarici tələbələrin istifadə etdikləri bütün yataqxana binalarında əsaslı təmir işləri aparılıb, yeni avadanlıqlar alınıb və tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb.

**Azərbaycan Tibb Universitetinin əməkdaşları Türkiyənin İstanbul şəhərində böyrək transplantasiyası üzrə beynəlxalq kursda iştirak ediblər. Beynəlxalq Transplantasiya Şəbəkəsi (International Transplant Network) və Avropa Orqan Transplantasiya Cəmiyyətinin (ESOT) təşkilatçılığı ilə baş tutan kurs orqan köçürmə cərrahiyyəsi və nefrologiyası kimi iki əsas bölmədən ibarət olub.**

# Əməkdaşlarımız beynəlxalq kursda iştirak ediblər




Dünyanın 30-dan çox ölkəsindən 100-dən artıq iştirakçı arasında ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov, Transplantologiya şöbəsinin müdiri, assistent Anar Namazov, uzman dr. Orxan Quliyev və dr. Şəbnəm Qədiməliyeva da olublar. Yüksək ixtisaslı mütəxəssislər tərəfindən mühazirələr səsləndirilməsi ilə yanaşı, kursda, həmçinin transplantasiya mərkəzlərinin təcrübələri nümayiş etdirilib. Kursun özəlliklərindən biri də burada iştirakçılar qarşısında canlı əməliyyatların icra olunması, eyni zamanda əməliyyatların xüsusiyyətləri və mərhələlərinin müzakirə edilməsi olub.

Dünyanın hər yerindən həkimləri bir araya gətirən kursda türkiyəli mütəxəssislər tərəfindən donor nefrektomiyasının həm laparoskopik, həm retroperitoneskopik, həm də robotik üsulları canlı olaraq həyata keçirilib. Bu zaman böyrək köçürülməsində (həm donor nefrektomiyası, həm də qreftin implantasiyasında) robotun tətbiqi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Əcnəbi tələbələr ATU-da istehsalat təcrübəsindən razı qalıblar

## Dünyanın müxtəlif ölkələrindən gəlmiş tələbələrə sertifikatlar verilib

**İyulun 25-də ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov Tədris Cərrahiyyə Klinikasında təcrübə keçən əcnəbi tələbələri qəbul edib. O, istehsalat təcrübəsini məhsuldar keçirən əcnəbi tələbələrə universitetimiz haqqında ətraflı məlumat verib.**



Bildirib ki, Azərbaycan Tibb Universitetində təhsil alan 7 min tələbənin təxminən 3 minə qədəri xarici ölkə vətəndaşıdır. Universitetin ötən il beynəlxalq akkreditasiyadan keçdiyini, 100-ə yaxın beynəlxalq müqavilə imzaladığını xatırladan prorektor, son illərdə aparılan islahatların uğurlu nəticələrindən danışıb. Eyni zamanda burada təcrübə keçən tələbələrin öz ölkələrinə qayıtdıqdan sonra ölkəmiz, universitetimiz barədə xoş təəssüratlarını bölüşəcəklərinə, elmi və praktik əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini diqqətə çatdırıb.

İstehsalat təcrübəsindən razı qaldıqlarını söyləyən əcnəbi tələbələr, həmçinin qədim tarixə malik Bakı şəhəri ilə yaxından tanış olmaları və Azərbaycanın bəzi regionlarına səyahət etmək fürsəti qazanmalarından məmnunluqla söhbət açıblar.

Görüşün sonunda əcnəbi tələbələrə sertifikatlar təqdim olunub.

Görüşdə universitetin Tədris departamentinin direktoru, dosent Kamandar Yaqubov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov iştirak ediblər.

Qeyd edək ki, Türkiyə, Slovakiya, Rumıniya, Macarıstan, Serbiya, Litva, Çexiya və digər Avropa ölkələrindən gələn tələbələr Həkimlər və Təbib Tələbələr İctimai Birliyi ilə ATU arasında imzalanmış memoranduma əsasən, Tədris Cərrahiyyə Klinikasının Ümumi cərrahiyyə, Neyrocərrahiyyə, Travmatologiya, Uşaq cərrahiyyəsi, İnvaziv kardiologiya və Ginekologiya şöbələrində bir ay müddətində təcrübə keçiblər. Onların istehsalat təcrübəsi universitetin rektoru, professor Gəray Gəraybəylinin, o cümlədən klinika rəhbərliyinin diqqət mərkəzində olub.

# Tibb bacısının ali təhsilli olması müasir dövrün tələbidir

## ATU-da 2020-ci ildən bu ixtisas üzrə təhsil həyata keçirilir

**İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva "Tibb bacısı" ixtisasının xüsusi önəmindən danışıb. Bütün dünyada tibb bacılarının ali təhsil müəssisələrində hazırlandığını diqqətə çatdıran fakültənin dekanı, Azərbaycan Tibb Universitetində tibb bacısı işi ixtisası üzrə təhsilin 2020-ci ildən həyata keçirildiyini bildirib.**



Onun sözlərinə görə, bu təhsilin əsas məqsədi müasir tələblərə cavab verən mütəxəssislərin yetişdirilməsi, eyni zamanda bizim tibb bacıları və tibb qardaşları üçün yeni imkanların yaradılmasıdır: "Bu imkanlar daxilində məzunlarımız ilk növbədə bakalavr olduqlarına görə magistr və doktorantura pillələrində öz təhsillərinə davam edə bilərlər. Həmçinin gələcəkdə dissertasiya işlərini müdafiə edərək fəlsəfə doktoru, elmlər doktoru elmi dərəcələrini almaq, növbəti mərhələdə isə dosent və professor vəzifələrini tutmaq imkanları qazanırlar. Bundan əlavə, ali təhsilli tibb bacısı tədris fəaliyyətini həyata keçirə bilər. Çünki beynəlxalq səviyyədə "Tibb bacısını tibb bacısı öyrətməlidir!" şüarı tibb bacısı təhsilinin əsas prinsipidir. Və nəhayət, karyera baxımından məzunlarımız liderlik, idarəçilik bacarıqlarını nümayiş etdirərək, gələcəkdə müəyyən ictimai səhiyyə qurumlarında, hətta rəhbər vəzifələrdə çalışmaq şanslarını artırırlar".

Özlərini bu ixtisasda görmək istəyən gənclər üçün Azərbaycan Tibb Universitetinin ən yaxşı seçim olduğunu deyən Q.Qəniyeva qeyd edib ki, bu gün tibb bacılarının milli və qlobal səhiyyədə rolu səhiyyə xidmətinin bütün sahələrində yüksək səviyyədədir. Yoluxucu və qeyri-infeksion xəstəliklərlə mübarizə, fövqəladə hallarda tibbi kömәyin təşkili və həyata keçirilməsi, insanların tələbatlarına uyğun kompleks xidmətin yerinə yetirilməsi əsas hədəflərdir: "Ümumdünya Səhiyyə Assambleyasının 72-ci sessiyası 2020-ci ili "Tibb bacısı və mamaların Beynəlxalq ili" elan etmişdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən hazırlanmış "Tibb bacısı işinin dünyada vəziyyəti, 2020 il" məruzəsində qeyd olunmuşdur ki, səhiyyənin indiki vəziyyəti həm tibb bacısı işçilərinin sayının, həm də onların vəzifə və funksiyalarının əhatə dairəsinin genişlənməsini tələb edir.

50 ildən artıqdır ki, Şimali Amerika, Avropa ölkələrində, Avstraliya və Yaponiyada alı təhsilli (bakalavr) tibb bacılarının hazırlanması uğurla tətbiq olunur. ÜST ekspert komitəsinin tövsiyələrinə uyğun olaraq, ali təhsilli tibb bacıları bu ixtisasda fəaliyyət göstərənlərin ümumi sayının ən azı 10%-ni təşkil etməlidir".

Bütün bunların müasir dövrün tələblərindən irəli gəldiyini söyləyən müsahibimiz onu da vurğulayıb ki, XXI əsrin tibb bacısı öz peşə vəzifələrini yerinə yetirməyə hazır olmaqla yanaşı, tibdə innovativ dəyişikliklərə tez uyğunlaşmaq qabiliyyətinə malik olmalı, qrup lideri kimi fəaliyyət göstərməyi bacarmalıdır: "Tibbi komandanın koordinatoru kimi tibb bacısı üçün hər bir xəstənin ehtiyaclarını dəqiq qiymətləndirmək, fərdi baxım planını qurmaq, komanda üzvləri arasında aydın ünsiyyəti təmin etmək səriştəsi olduqca zəruridir. Bundan əlavə, elmin sürətlə inkişaf etdiyi dövrdə tibb bacısı tədqiqat aparmaq, bu tədqiqatların nəticələrini əsaslandırmaq və cəmiyyətə təqdim etmək qabiliyyətinə malik olmalıdır. Bunu da yaddan çıxarmaq olmaz ki, pedaqoji bacarıqları olan ali təhsilli tibb bacılarına ehtiyac günü-gündən çoxalır.

Azərbaycanda da ali təhsilli tibb bacısı (bakalavriat) ixtisasının yaranması qlobal tendensiyalara reaksiya idi. Təcrübə göstərir ki, tibb bacısı işinin keyfiyyəti, onun yeniliklərə tez uyğunlaşması və yeniliklərdən məharətlə istifadə etməsi baxımından da ali təhsil vacibdir. Bir çox ölkələrdəki kimi, Azərbaycanda da tibb bacısı üzrə bakalavriatın yaradılması Bolonya sisteminə uyğun olaraq məzunlara magistr və doktorantura pillələrində təhsilin davamlılığını təmin etməkdə geniş imkanlar açır".

Fakültənin dekanı bu qısa dövr ərzində ATU-nun rəhbərliyi tərəfindən tibb bacısı ixtisasının tədrisi üçün əhəmiyyətli işlər görüldüyünü xatırladıb. O, Türkiyənin Qazi və Ege universitetlərinin bu sahədə tədrislə məşğul olan mütəxəssisləri ilə sıx əlaqələr yaradıldığını, proqramların təkmilləşdirilməsi üzrə treninqlərin təşkil edildiyini, ÜST və digər beynəlxalq qurumlarla daimi əməkdaşlığın həyata keçirildiyini bildirib. Mübadilə proqramı çərçivəsində tibb bacısı ixtisasında təhsil alan tələbəmiz Rəna Cumayevanın Türkiyənin Qazi Universitetində bir semestr ərzində yüksək nəticələr əldə etdiyini də diqqətə çatdıran Q.Qəniyeva, məzunlarımız arasında səhiyyə xidmətlərinin təkmilləşdirilməsinə, əhalinin sağlamlığının yaxşılaşdırılmasına öz töhfəsini verən və beynəlxalq səviyyədə Azərbaycanın adını yüksəldən mütəxəssislərin yetişəcəyinə əminliyini ifadə edib.

# Biruni Universitetinin müəllimi ATU-da təcrübə keçib




**Türkiyənin Biruni Universitetinin əməkdaşı dr. Tuğçe Kahraman Demir Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasında təcrübə keçib. Bu proqram iki ali məktəb arasında imzalanmış "Professor-müəllim heyətinin mobilliyi üzrə KA107 Erasmus+ mübadilə proqramı" çərçivəsində baş tutub.**

T.K.Demir ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəylinin rəhbərliyi altında təcrübə keçib. O, kafedrada tədris və müalicə işləri ilə tanış olub, öz bilik və bacarığını bölüşüb. Həmçinin tibbi genetika üzrə elmi seminarda iştirak edib.

Təcrübə proqramının sonunda dr. Tuğçe Kahraman Demirə ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov tərəfindən Erasmus+ mübadilə proqramının sertifikatı təqdim edilib.

# Azərbaycanda ürək-damar xəstəliklərinə dair tədqiqat aparılıb

**Avropa Kardioloji Cəmiyyəti və Avropa Profilaktik Kardiologiya Assosiasiyasının SURF CHD (Survey of Risk Factors in Coronary Heart Disease) tədqiqatının Azərbaycan üzrə nəticələri "World Journal of Cardiology" adlı nüfuzlu jurnalda dərc olunub.**



Tədqiqat klinik audit xarakterli olub, İrlandiyanın Trinity College Dublin və Niderlandın Utrext Universitetinin kardiologiya sahəsində tanınmış mütəxəssisləri professor İ.Graham və professor D.Grobbee tərəfindən hazırlanmış protokola əsasən, dünyanın 30-a yaxın ölkəsində aparılıb. Araşdırmanın əsas məqsədi ürək-damar xəstəlikləri (ÜDX) olan insanlarda əsas risk amillərinə nə dərəcədə nəzarət edildiyini öyrənmək olub.

Azərbaycanda SURF tədqiqatının aparılması ATU-nun dosenti, Azərbaycan Kardiologiya Cəmiyyətinin Kardioprofilaktika və Reabilitasiya işçi qrupunun rəhbəri Rəhimə Qabulovanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilib. Bakıda və ölkəmizin bölgələrində kardioloji profilli şöbələrə 2019-2022-ci illərdə müraciət etmiş xəstələrin klinik məlumatları analiz olunub və təsdiqlənmiş ÜDX olan pasiyentlər arasında artıq çəki, tütünçəkmə, yüksək arterial təzyiq, şəkərli diabet, hiperlipidemiya kimi risk amillərinə nəzarətin hələ qənaətbəxş olmadığı, onları xarakterizə edən klinik-laborator göstəricilərin səviyyələrinin beynəlxalq tövsiyələrdəki hədəflərə çatmadığı aşkar edilib.

Tədqiqatda ÜDX-nin ikincili profilaktikasına diqqətin artırılmasının vacibliyi qeyd edilərək müvafiq tədbirlərin ölüm, təkrari hospitalizasiya, əlilliyin və nəticədə səhiyyə xərclərinin azaldılmasına gətirib çıxaracağı vurğulanıb.

Qeyd etmək lazımdır ki, beynəlxalq tədqiqatda Azərbaycanın təcrübəli kardioloq-mütəxəssisləri ilə yanaşı, gənc həkimlər də aktiv iştirak ediblər.

# Ukraynalı uşaqlar Tədris Terapevtik Klinikada müayinə olunub



**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Ukraynada baş verən müharibədən qaçqın düşərək Azərbaycana sığınan uşaqlar üçün iyulun 15-də tibbi müayinələr təşkil olunub. Aksiya çərçivəsində 50-dən çox uşaq müxtəlif tibbi müayinələrdən keçib.**

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində təşkil olunan tədbirdə Ukrayna Ali Radası sədrinin müşaviri Hikmət Cavadov, Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski, klinikanın baş direktoru Fərid Eyvazov iştirak ediblər.

Səfir V.Kanevski Azərbaycanda məskunlaşan ukraynalı ailələrə göstərilən qayğı, ölkəsinə verilən dəstəyə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirən səfir bu kimi tədbirlərin əvvəllər də təşkil olunduğunu qeyd edib. O deyib ki, Azərbaycanda məskunlaşan ukraynalı ailələrə və uşaqlara göstərilən qayğı Ukrayna hakimiyyəti tərəfindən də yüksək qiymətləndirilir.

Ukrayna Ali Radası sədrinin müşaviri H.Cavadov Azərbaycan dövləti tərəfindən Ukraynadan qaçqın düşən ailələrə davamlı dəstək göstərildiyini bildirib. Qeyd edib ki, uşaqların müayinəsində məqsəd onların sağlamlığının qayğısına qalmaqdır. H.Cavadov müayinədə, həmçinin Ukraynada fəaliyyət göstərən Azərbaycan diaspor üzvlərinin hazırda Bakıda olan uşaqlarının da iştirak etdiyini vurğulayıb.

Klinikanın baş direktoru F.Eyvazov Azərbaycan dövləti tərəfindən uşaqlara göstərilən qayğıdan danışıb və onların daim diqqət mərkəzində saxlanıldığını bildirib.



# Klinik genetikaya həsr olunmuş seminar keçirilib

**ATU-nun Tədris Terapevtik Klinikasında klinik genetikanın öyrənilməsinə həsr olunmuş 3 günlük elmi-praktik seminar keçirilib. Azərbaycan Uşaq Nevroloqlar Assosiasiyası və ATU-nun I Müalicə-profilaktika fakültəsinin Nevrologiya kafedrasının birgə təşkil etdiyi seminarda fakültənin dekanı, dosent Elşad Novruzov mövzunun aktuallığı və elmi araşdırmaların tətbiqi baxımından əhəmiyyətindən söz açıb.**

Sonra Lokman Hekim Universitetinin şöbə müdiri, professor dr. Sərdar Ceylaner və dosent dr. Gülay Ceylaner çıxış edərək genetik müayinələrin növləri, belə müayinələrə olan göstərişlər, xəstəliklərin əlamətlərinə görə qiymətləndirilmə aparılması metodları və digər məsələlərdən danışıblar.

Tədbirdə Tədris Terapevtik Klinikasının həkim-rezidentləri ilə yanaşı, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun, Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun və UNX-nın əməkdaşları iştirak edib.

Seminarda, həmçinin genetik mənşəli xəstəlik şübhəsi olan pasiyentlərə birgə baxış keçirilib, müayinə və müalicəyə aid olan tövsiyələr səsləndirilib. Tədbirdə, həmçinin I Müalicə-profilaktika fakültəsinin fəal tələbələri konkret klinik halları müstəqil şəkildə təqdim ediblər.

# Antibiotiklər karlığa səbəb ola bilər

## Vəfa Pənahian: Ağıreşitmənin səbəbləri sırasında qohum nikahları da ciddi yer tutur



**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, ATU-nun Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian yerli mətbuata müsahibəsində bir sıra məqamlara aydınlıq gətirib.**

**- Vəfa müəllim, ilk öncə bilmək istərdik ki, hansı halda və hansı yaşdan sonra eşitmə problemləri yarana bilər?**

- Eşitmə problemlərinin yaranmasında bir çox səbəblər rol oynayır və yaş həddindən asılı deyil. Əsas səbəblərdən antibiotiklərin nəzarətsiz istifadəsi, boyun fəqərələrinin osteoxondrozu, şəkərli diabet, küylü mühit, kəllə-beyin zədələnmələri və s. qeyd etmək olar.

Adətən ağıreşitmə anadangəlmə və sonradan qazanılmış olur. Yenidoğulmuşlarda anadangəlmə ağıreşitmə ananın hamiləlik zamanı keçirdiyi xəstəliklərdən, travmatik, kimyəvi və toksik təsirlərdən əmələ gələ bilər. Bundan əlavə, ağıreşitmə və karlığın anadangəlmə forması valideynlər arasında bağlanan qohum nikahları nəticəsində yarana bilər. Xəstəliyin əmələ gəlməsində irsiyyətin böyük əhəmiyyəti var. Belə ki, eşitmə qabiliyyətinin anadangəlmə pozulmalarının 11%-i genetik səbəbdən yaranır.

Sonradan qazanılma ağıreşitmə keçirilən xəstəliklər nəticəsində yarana bilər. Burada əsasən virusların mənşəyi mühüm rol oynayır. Ümumi müqavimətin zəifləməsi və endokrin pozulmalar xəstəliyin inkişafına təkan verir. Bəzi hallarda ani eşitmə itkisi müşahidə olunur. Bu, arterial təzyiqinin yüksəlməsi və eşitmə orqanına qansızma nəticəsində əmələ gəlir.

Ağıreşitmə və karlığın digər növü yaşla əlaqədardır və "Presbiacusis" adlanır. Adətən bu növ ağıreşitmə 50 yaşdan sonra başlayır və qocalıqda tam karlıqla nəticələnə bilər. Beynəlxalq standartlara əsasən, ağıreşitmənin 5 dərəcəsi var: yüngül, orta, ağır, çox ağır və karlıq.

**- Bəs hansı halda eşitmə aparatından istifadə edilməlidir?**

- Müalicə üsullarına tabe olmayan hallarda eşitmə cihazlarından istifadə olunur. Eşitmə qabiliyyətinin bir sıra pozulmaları zamanı müalicə üsullarından istifadə edərək, müsbət nəticə əldə etmək olur. Digər xəstəliklər cərrahi müdaxilələr vasitəsilə aradan qaldırılır. Hər iki müalicə növünə tabe olmayan xəstəlik eşitmə sinirində olan pozulmalardır. Bu pozulmalar sensonevral ağıreşitmə və karlıq adlanır. Xəstəliyə bütün yaşlarda rast gəlinə bilər.

Eşitmə cihazlarının iki növü olur: analoqlu və rəqəmsal. Analoqlu cihazlar səsgücləndirici rolunu yerinə yetirirlər və artıq gündəmdən çıxırlar. Rəqəmsal cihazlar isə fərdi qaydada seçilir və müayinə aparılandan sonra təyin olunur. Rəqəmsal tipli cihazlar eşitmə pozulması olan zonanı bərpa edir, qulaqda əlavə küyləri aradan qaldırır. Cihaz bir və ya hər iki qulağa tətbiq oluna bilər.

**- Cərrahi müdaxilələrlə eşitmə problemini tam aradan qaldırmaq mümkündürmü?**

- Qulaq cərrahiyyəsində bir sıra eşitmə bərpaedici əməliyyatlar var. İnsanın eşitmə orqanı səskeçirici və səs qəbuledici hissələrdən ibarətdir. Səskeçirici hissəsində yaranan xəstəliklər zamanı cərrahi əməliyyatlar müsbət nəticə verir. Bu əməliyyatlar xarici qulaq kanalında, təbil pərdəsində, eşitmə sümükcüklərində və təbil boşluğunda aparılır.

Ötən əsrin axırlarından cərrahi müdaxilələr daxili qulaqda müvəfəqiyyətlə tətbiq edilməyə başlayıb. Daxili qulaqda səs qəbuledici orqanın pozulmaları zamanı ilbizə elektrod yeridilir və beləliklə, səs dalğaları birbaşa eşitmə reseptorlarına ötürülür. Bu eşitmənin bərpaedici əməliyyatı koxlear implantasiya adlanır.

**- Uşaqlarda eşitmə probleminin yaranma səbəbi əsasən nələrdir?**

- Uşaqlarda eşitmə problemi bir neçə səbəbdən yarana bilər. Erkən yaşlarda keçirilən virus infeksiyası və yoluxucu xəstəliklərdən sonra eşitmə problemi yaranma riski yüksəkdir. Adətən uşaq xəstəliklərinin müalicəsində antibiotiklərdən istifadə olunur. Eyni zamanda, bilmək lazımdır ki, antibiotiklər eşitmə sinirinə toksik təsir göstərir və onların yüksək dozalarda istifadəsi erkən yaşlarda ağıreşitmənin və karlığın yaranmasına səbəb ola bilər. Yəni, antibiotiklər uşaqlara ehtiyatla təyin olunmalıdır.

Digər tərəfdən, uşaqlarda burun tənəffüsünü çətinləşdirən udlaq badamcığının böyüməsi eşitmə qabiliyyətinin pozulmasına səbəb olur. Belə ki, adenoid adlanan udlaq badamcığı burunudlağa açılan eşitmə borusunun qabağını tutaraq eşitmə probleminə səbəb olur. Yaranmış problem cərrahi müdaxilə ilə aradan qaldırılır.

# Ana südü ilə qidalandırmanın əhəmiyyəti vurğulanıb

**1-7 avqust – Ümumdünya Ana Südü ilə Qidalandırma Həftəsi çərçivəsində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının (TCK) Neonatologiya şöbəsində tədbir təşkil olunub.**



Adıçəkilən şöbənin müdiri, ATU-nun I Uşaq xəstəlikləri kafedrasının assistenti, dr. Sərxan Elbəyiyev ana südü və körpələri onunla qidalandırmağın əhəmiyyəti mövzusunda təqdimatla çıxış edib: "Ümumdünya əmizdirmə həftəsi ilk dəfə WABA (World Alliance for Breastfeeding Action) tərəfindən Malayziyada təsis olunub. Əsas məqsəd ana və yenidoğulmuşların ölümünün qarşısını almaqdır. ÜST və UNİCEF uşaqları ilk 6 ay ərzində sadəcə ana südü ilə qidalandırmağı məsləhət görür. Bizlər də klinikamızda uşaq dünyaya gətirən analara onların özü və körpələrinin sağlamlığı üçün ana südünün böyük əhəmiyyətini izah edir, onun bir çox müsbət nəticələrini diqqətə çatdırırıq".

Tədbirin davamında TCK-nın Ginekologiya şöbəsinin müdiri, I Mamalıq-ginekologiya kafedrasının professoru Səadət Sultanova, II Uşaq xəstəlikləri kafedrasının assistenti Sevinc Muxtarova çıxış edərək bu mövzuda fikirlərini bölüşüblər.

Qeyd edək ki, Ümumdünya Ana Südü ilə Qidalandırma Həftəsi münasibətilə Səhiyyə Nazirliyi, BMT-nin Uşaq Fondu (UNICEF) və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hər il ölkəmizdə müxtəlif tədbirlər keçirilir. Burada məqsəd körpələrin ana südü ilə qidalandırılmasını təbliğ və təşviq etmək, körpələrin, o cümlədən anaların sağlamlığı baxımından ana südü ilə qidalandırmanın önəmi barədə geniş maarifləndirmə aparmaqdır.



# Texniki işçi heyəti sertifikasiyadan keçib

**ATU-nun Təsərrüfat və təchizat şöbəsinin texniki işçi heyəti peşə və bilik səviyyələrinin artırılması ilə əlaqədar "Azneftkimyamaş - Balaxanı maşınqayırma zavodu" ASC-nin Personalın Sertifikatlaşdırılması üzrə təlim mərkəzində kurslara qatılıb.**

Təlim mərkəzinə göndərilən bütün işçilər müvəffəqiyyətlə imtahan verərək sertifikat alıblar. Sertifikatların təqdimetmə mərasimində universitetimizin Mülki Müdafiə Qərargahının rəisi Ramiz Əliyev, bas energetik Mehdi Şəmsəliyev, mühəndislər Hüseyn Hacıyev və İsmayıl İsmayılov iştirak ediblər.

Şəhid məzunlarımız

# Vətən səmasında ulduzdu şəhidlər

## ATU-nun Milli Qəhrəman məzunları: Çingiz Mustafayev, Muxtar Qasımov, Gültəkin Əsgərova

**Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların hər biri qəhrəman, xalqımızın əbədi qan yaddaşıdır. Məhz onların, eləcə də qazilərimizin və müharibə veteranlarının fədakarlığı sayəsində ölkəmiz bu gün dünya dövlətləri sırasında qürurla öz yerini tutur.**

**Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə göstərdikləri xüsusi xidmətlərə görə orden və medallarla təltif olunan Azərbaycan Tibb Universitetinin şəhid məzunları arasında Milli Qəhrəman adını alanlar da var. Onlar I Qarabağ müharibəsinin iştirakçılarıdır. Universitetimiz canını Vətən yolunda qurban verən bütün şəhidlərimizin xatirəsini həmişə əziz tutur. Mütəmadi olaraq müxtəlif tədbirlər keçirilir, universitetin rəhbərliyi, professor-müəllim heyəti və çoxminli tələbələrimiz tərəfindən şəhidlərimiz ehtiramla yad olunur.**

**Gəlin, Milli Qəhrəman məzunlarımızı bir daha xatırlayaq. Onlardan biri hamımızın yaxşı tanıdığı telereportyor Çingiz Mustafayevdir.**



### Həmişə liderliyə və yeniliyə can atıb

Çingiz Mustafayev 1960-cı il avqustun 29-da Rusiyanın Həştərxan vilayətinin Vladimirovski rayonunun Kapustin Yar kəndində anadan olub. 1964-cü ildə ailəsi ilə birlikdə Bakıya köçüb. Bir müddət Cəmşid Naxçıvanski adına Hərbi Məktəbdə oxuyub. Lakin buranı sonadək tamamalamayıb və 1977-ci ildə Yasamal rayonunda yerləşən 167 saylı orta məktəbi bitirib.

Həmişə maraqlı ideyaları ilə tay-tuşlarından seçilən Ç.Mustafayev 1970-ci illərdə keçmiş sovet məkanında və Azərbaycanda ilk disko-klubun yaradıcısı olub. O, Azərbaycanın ilk DJ kimi tanınır. 1981-ci ilin sentyabrında "light DJ" və "texnik"lərdən ibarət 12 nəfərlik "3M" adlı qrup yaradıb.

Anasının arzusu onu həkim görmək idi. 1977-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. 1983-cü ildə institutu müvəffəqiyyətlə bitirən Ç.Mustafayev təyinatla Şabran rayonunda 3 il həkim işləyib. Sonra İnşaat Mühəndisləri İnstitutunun yataqxanasına baş həkim təyin edilib.

Hələ 1983-cü ildə dünyada ilk dəfə olaraq Azərbaycan dilində "Dünənki keçdi" adlı rep janrlı mahnı onun ifasında səslənib. 1985-ci ildə yaratdığı "Cəngi" birliyindəki fəaliyyəti ilə Azərbaycan gəncləri arasında populyarlıq qazanıb.

1991-ci ilin noyabrından etibarən jurnalist və Azərbaycan Dövlət Televiziyasında reportyor kimi fəaliyyət göstərib. Onun əsasını qoyduğu "215 kl" studiyasında hazırladığı reportajlarda Azərbaycan haqqında həqiqətlər öz əksini tapıb, bu materiallar ABŞ və Avropanın aparıcı teleagentlikləri və telekanallarında nümayiş etdirilib.

Reportajları bir qayda olaraq cəbhədən bəhs etdiyi üçün tamaşaçılar "215 kl" studiyasını müharibədən məlumat verən etibarlı mənbə kimi qəbul edirdilər. Döyüşlər gedən bölgələrdən operativ xəbərlər, ayrı-ayrı əsgərlər haqqında xüsusi reportajlar, eləcə də ölkəmizdə cərəyan edən siyasi proseslər barədə ətraflı informasiyalar onun müəllif yaradıcılığında öz əksini tapırdı.

O, həmçinin 1990-cı illərdə bir çox layihələrə də imza atıb, Azərbaycan televiziyasında "Ekspromt", "Cümə axşamı" verilişlərinin, "Gənclik" estrada tamaşasının və "Ozan" rok qrupunun yaradıcısı olub. Fəaliyyət göstərdiyi bütün istiqamətlərdə həmişə uğur qazanan Ç.Mustafayev tamaşaçı və dinləyicilərinin sevimlisi olub.

### Xocalı faciəsi haqda filmi bütün dünyaya yayılıb

Ç.Mustafayev Azərbaycan tamaşaçısına reportajları ilə tanış olsa da, dünya onu daha çox Xocalı faciəsi ilə bağlı çəkdiyi filmlə tanıyıb. Çingiz Mustafayev məhz bu filmi ilə faciəni olduğu kimi dünya ictimaiyyətinə çatdıra bilib.

Tanınmış telereportyor 8 ay ərzində Qarabağ müharibəsi haqqında 18 sənədli film çəkib. O, döyüş zonalarına yalnız reportyor kimi yollanmırdı. Şəraitə uyğun olaraq, cəbhədə bir əsgər, zabit və hətta komandan kimi bir çox vəzifəni üzərinə götürürdü. Laçından qaçan əsgərlərə geri qayıtmaları barədə verdiyi kəskin və qısa göstərişlər, bu əmrlərin yerinə yetirilmədiyini görəndə Çingizin emosional davranışı teletarixin dramatik səhifələri kimi onu izləyənlərin yaddaşında dərin iz buraxıb.

1992-ci il iyunun 15-də Əsgəran rayonunun Naxçıvanlı kəndində çəkiliş zamanı şəhid olub.

Qardaşı Vahid Mustafayevin sözlərinə görə, Çingiz həmin vaxt "ABC News" üçün material hazırlayırmış və yaranan çətin vəziyyətə baxmayaraq, hücumu lentə alıb. Minaatan atəşi zamanı Çingiz qəlpələrdən ağır yaralanıb, onun sağ ayağının bud hissəsində arterial damarı zədələnib və sürətli qanaxmadan döyüş meydanında dünyasını dəyişib. Lakin Çingiz Mustafayevin kamerası çəkməkdə davam edirdi...

Məzarı Bakıda, Şəhidlər Xiyabanındadır.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli fərmanı ilə Çingiz Mustafayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Xatirəsinin əbədiləşdirilməsi üçün Bakıda yaşadığı binanın önünə barelyefi vurulub. Vaxtilə oxuduğu Cəmşid Naxçıvanski adına hərbi liseydə büstü qoyulub. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Şüvəlandakı istirahət guşəsi, Bakı küçələrindən biri, "Palmali" şirkətlər qrupuna məxsus tanker onun adını daşıyır.

2010-cu ildə ABŞ-nin CNN telekanalı Ç.Mustafayevin həyat və yaradıcılığına, onun lentə aldığı Xocalı faciəsinə dair reportaj yayımlayıb. Süjet onun Xocalıda ermənilər tərəfindən törədilmiş vəhşilikləri dünyaya çatdıran kadrları üzərində qurulub. 2011-ci ildə Almaniyada 3 min nüsxə ilə Çingizin təsviri olan poçt markası buraxılıb. Şabranda onun vaxtilə işlədiyi, adını daşıyan parkın 2013-cü ildə açılışı olub. Şahdağda 4062 metr hündürlükdə "Çingiz zirvəsi" var.

1999-cu ildən Çingiz Mustafayev adına Fond da fəaliyyət göstərir. O vaxtdan etibarən atası Fuad Mustafayev fondun prezidenti olub. Fond fəaliyyəti dövründə "İlin adamı", "Ən yaxşı jurnalist" mükafatları və "Vətənpərvər və hərbi mahnı" müsabiqələrini həyata keçirib. Fondun təşəbbüsü ilə Şəkidə "Çingiz Klubu" yaradılıb. KİV işçilərinin təhsil almasına və "Çingiz Mustafayev" adına düşərgəyə yardımlar edib.

"Dəyirman" qrupunun "Ya Qarabağ, ya ölüm" mahnısı onun Xocalı soyqırımı haqqında çəkdiyi filmlə remiks olunub, Hüseyn Dərya isə jurnalistə "Çingiz Mustafayev" adlı mahnı həsr edib.



### Xankəndidə işləyərkən ermənilərin iç üzünü görmüşdü

Muxtar Qasımov da Azərbaycanın Milli Qəhrəmanıdır. O, 1958-ci il yanvarın 10-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. 1974-ci ildə Ağdam şəhər 5 saylı orta məktəbini bitirərək, Tibb İnstitutuna daxil olub. Təhsilini başa vurduqdan sonra işləmək üçün təyinatla Xankəndiyə yola düşüb. Orada işləyərkən ermənilər arasında separatizm, millətçi təbliğatların şahidi olub. Müxtəlif təzyiqlərə baxmayaraq işinə davam edib, milliyyətindən asılı olmayaraq insanlara tibbi yardım göstərib. 1988-ci ildə vəziyyət nəzarətdən çıxandan sonra Ağdam hospitalında həkim kimi fəaliyyətinə davam edib.

Ağdamda gedən bütün döyüşlərdə iştirak edərək, çoxsaylı yaralıların həyatını xilas edib. Xocalı faciəsindən sonra həyatını tamamilə cəbhəyə bağlayan Muxtar Qasımov 1992-ci ilin iyun ayında Aranzəmin, Pircamal, Ağbulaq kəndlərinin azad edilməsi uğrunda gedən döyüşlərdə hərbi həkim kimi iştirak



edib. 1992-ci il iyunun 16-da Naxçıvanlı kəndi uğrunda gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olub.

Məzarı Bakıda, Şəhidlər Xiyabanındadır.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli fərmanı ilə Muxtar Qasımov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Rejissor Rəşad Qasımov onun haqqında "Vətən sevgisi" adlı sənədli film çəkib.



### "Qələbənin sonunadək buradayam, Şuşa alınana qədər..."

Hamımızın yaxşı tanıdığı Gültəkin Əsgərova 1960-cı il noyabrın 20-də Bakı şəhərində doğulub. 200 saylı orta məktəbi bitirdikdən sonra Tibb İnstitutuna daxil olub. O, 1985-ci ildə institutu bitirərək, 8 saylı Təcili Yardım Stansiyasında əmək fəaliyyətinə başlayıb. 1991-ci ildən Uroloji Kliniki Xəstəxanada işləyib.

Qarabağda müharibə başlayanda, körpəsini anasına əmanət edərək, beş nəfər tibb bacısı ilə birlikdə yaralı hərbçilərə yardım etmək üçün cəbhəyə yola düşüb. 1992-ci ilin aprelindən etibarən Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. Şuşa həbsxanasında saxlanılan dustaqların qapısını açıb, onları ermənilərə əsir düşməkdən xilas edib.

Gültəkin Ağdamın Aranzəmin yüksəkliyində gedən şiddətli döyüşlər zamanı xeyli yaralı hərbçiyə ilkin tibbi yardım göstərib, onları həyata qaytarıb. 1992-ci il iyunun 20-də güllə yağışı altında yaralıları döyüş zonasından çıxaran zaman qəhrəmancasına həlak olub.

Məzarı Bakıda, Şəhidlər Xiyabanındadır.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli fərmanı



ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Xatirəsinin əbədiləşdirilməsi üçün oxuduğu 200 saylı orta məktəbə onun adı verilib. Həm adıçəkilən məktəbdə, həm də Bakıda Nərimanov rayonundakı xəstəxananın önündə büstləri qoyulub. Yaşadığı Atatürk prospekti 2a ünvanındakı binaya xatirə lövhəsi vurulub. Həmçinin Təfəkkür Universitetinin Tibbi biologiya kafedrası onun adını daşıyır. O cümlədən, Xəzərdə üzən gəmilərdən biri Gültəkin Əsgərovanın adınadır və gəmidə muzeyi yaradılıb.

20 iyun 2014-cü ildə Nizami Kino Mərkəzində "Gültəkin" filminin təqdimat mərasimi keçirilib, "Gültəkin zirvəsi" kitabı təqdim edilib.

Gültəkin anasına ünvanladığı məktubların birində yazırdı: "Mən sağ və salamatam. Hər şey normaldır. Qələbənin sonunadək buradayam, Şuşa alınana qədər..."

Təəssüf ki, Şuşanın azad olunması 28 il çəkdi və G.Əsgərova bunu görə bilmədi. Amma artıq 3 ildir ki, onun da, Vətən uğrunda şəhid olan digər şəhidlərimizin də ruhu şaddır. Vətəni bölünməyə qoymayan şəhidlər ölməzdir!

**Qabil ZİMİSTANOĞLU**



# Maqnit qasırğası və onun insana təsirinin biofizikası

**"Günəş-Yer-İnsan" ekoloji sistem təşkil edir. Bu sistemdə insan orqanizmi termodinamika qanunları baxımından tarazlıqda olmayan açıq sistemdir. Yəni canlı orqanizm daim ətraf mühitlə maddə, enerji və informasiya mübadiləsində olur. İnsan orqanizmi özü-özlüyündə elektromaqnit sistemdir. Ona görə də ətraf mühitlə elektromaqnit qarşılıqlı təsirdə olur. Orqanizm, daxili orqanlar, hüceyrələrarası qarşılıqlı əlaqənin özü də çox aşağı tezlikli elektromaqnit rəqsləri vasitəsilə həyata keçirilir.**

Xarici maqnit sahəsinin (geomaqnit) təsirinə bütün orqanizm, hüceyrə orqanelləri, xüsusilə mitoxondriya reaksiya verir. Maqnit sahəsinin təsirinə sinir toxumaları epitelin endokrin vəzilərin sekretor fəaliyyəti, ürək-qan damar sistemi daha həssasdır. Maqnit sahəsi canlı toxumalarda gedən fiziki-kimyəvi, bioloji proseslərə təsir edir.

Müasir məlumatlara əsasən, Günəş səthində baş verən aktivləşmə hadisəsinin geomaqnit sahəyə təsiri hesabına əmələ gələn həyəcanlanmanın yaratdığı çox aşağı tezliyə malik dəyişən maqnit sahəsinin insanlara (bioloji obyektlərə) təsiri həqiqətdir.

Günəş aktivliyinin Yerin biosferasına təsirinin tədqiqi və helibiologiya elminin əsasının qoyulması A.L.Çijevskiyə məxsusdur. Onun fikrincə, bu, epidemik xəstəlik, sosial fəlakətdir. Belə ki, ürəkdə yaranan problemlərə görə qəfil ölümün səbəbidir. Çijevski hesab edir ki, Günəşdə baş verən dəyişikliklərin Yerə təsiri mütləqdir, eyni zamanda insanlara təsiri nəticəsində onların fəaliyyətinin dəyişməsinə səbəb olur. Bu da Günəş və Yer arasında fiziki əlaqənin olmasına ən yaxşı göstəricidir.



1950-60-cı illərdə ilk kosmik uçuşlar nəticəsində Yerin maqnitosferası kəşf edildi. O, Yer üzərində bütün canlıları kosmik radiasiyadan qoruyaraq ekran rolunu oynayır. Bizim planetin bu maqnit örtüyünə Günəş küləyinin təsir mexanizmi müəyyən edildi. Günəşin aktivləşməsi dövründə onun səthində baş verən dəyişikliklər zamanı fəzanın bütün istiqamətlərinə, həmçinin Yerə tərəf fasiləsiz olaraq Günəş maddəsi – həm elektromaqnit dalğaları şüalanması yayılır, həm də böyük sürətlə uçan yüklü zərrəciklər seli (onlar əsasən elektronlar və protonlardan ibarətdir) gəlir ki, bu da Günəş küləyi adlanır.

Böyük enerjiyə malik bu zərrəciklər seli atmosfer havasının atom və molekulları (əsasən azot və oksigen) ilə toqquşaraq onları ionlaşdırır və həyəcanlandırır. Onun nəticəsində lüminessensiya işıqsaçması baş verir ki, bu da Qütb parıltısı adlanır. Bununla da geomaqnit sahəsinin aktivləşməsi dövrü başlayır. Bu da maqnit qasırğasının (fırtınasının) yaranmasına səbəb olur. Yəni, maqnit fırtınasının əmələ gəlməsi Günəş küləyi ilə Yerin maqnit sahəsinin qarşılıqlı təsirinin nəticəsidir.

Aparılan tədqiqatlar göstərib ki, maqnit fırtınası zamanı insanlarda miokard infarktı 31%, insult halları isə 23% artıb. Bioloji tədqiqatların nəticəsində maqnit sahəsinin təsirinə məruz qalan adamlarda qanın arterial təzyiqinin dəyişməsi aşkar edilməyib. Yalnız maqnit fırtınası dövründə bu prosesin kəskin artması müşahidə edilib.

Günəşin və geomaqnit sahəsinin aktivliyinin artması zamanı insan orqanizmində ürək-damar, endokrin, sinir sistemi, qan dövranı fəaliyyətinin pozulması ilə müşahidə olunan xoşagəlməz hadisələr baş verir. Heligeomaqnit amillərin təsiri damar tonusunun, arterial təzyiqin dəyişməsi, qanın koakulyasiyasının artması, ürəyin və digər orqanların ritmlərinin pozulması kimi fərdi reaksiyalarla müşayiət olunur. Nəticədə beyin qan dövranının ciddi surətdə pozulması, miokard infarktı və qəfil ölüm hadisələrinin sayının artmasına səbəb olur.

Çox təəssüf ki, bəzən mediada hava haqqında məlumatların çatdırılmasında meteohəssaslıqla maqnitohəssaslıq fərqləndirilmir. Meteohəssaslıq orta sutka ərzində havanın temperaturu, nisbi rütubət, atmosfer təzyiqi, yağıntının miqdarı və küləyin sürətinin dəyişməsinin hər bir adamın sağlamlığına təsir etməsidir. Ürək-damar sistemi və nəfəs orqanları xəstə olan insanlar daha meteohəssasdır. Statistik məlumatlara əsasən, sağlam insanların 35-45%-ə qədəri meteohəssas sayılır. Sutkalıq temperatur dəyişməsinin hər 10C artması zamanı miokard infarktına tutulan xəstələrin sayı 1,9%, insult olan xəstələrin sayı isə 4,9% artır.

Müəyyən edilib ki, maqnit fırtınası zamanı yaranan aşağı tezlikli geomaqnit sahəsinin bioobyektlərə ciddi təsiri var. Həmin dövrdə sağlam (normal) könüllülərin maqnitohəssaslığı və hipertoniya xəstəliyindən əziyyət çəkən xəstələr üzərində aparılan tədqiqatların maraqlı nəticələri verilib. Hipertoniya xəstələrini yüngül və ağır dərəcəli olmaqla iki qrupa ayırıblar. Aşkar edilib ki, ikinci qrup xəstələrin maqnitohəssaslığı ~20%-ə qədər olub. Yəni, ürək-damar sistemində ciddi patologiyası olan insanlarda geomaqnit amilinə həssaslığın kəskin artması müşahidə edilib.

Dahi A.Eynşteyn vaxtilə demişdi ki, əsl elmi təfəkkürə həmişə "poeziya elementləri" daxil olur. Məhz buna görə elmi biliklər təbiəti poetik dərketməni əhəmiyyətli dərəcədə zənginləşdirir. Fiziki biliklər təbiət hadisələrini, onların daxili harmoniyasını və gözəlliyini daha aydın işıqlandırmağa imkan verir.

Haqqında danışdığımız "maqnit fırtınası", yaxud "Qütb parıltısı" da lüminessensiya hadisəsidir. Belə ki, cisimdə (mühit) enerji toplanır. Bu, həyəcanlanma enerjisi adlanır. Bu enerjini cisim (mühit) sonra işıqsaçmayla şüalandırır ki, nəticədə lüminessensiya hadisəsi baş verir.

**Nüsrəddin ƏLİYEV,**
*Tibbi və bioloji fizika kafedrasının dosenti*
**Günay HÜSEYNOVA,**
*kafedranın əməkdaşı*

# Evimizin mikro-şərikləri

## Daim bizimlə birgə olan mənzil allergenləri bir çox fəsadlara səbəb ola bilir

**Qapalı mühitlərin (mənzil, inzibati otaqlar və s.) çirkləndiriciləri içərisində kimyəvi amillərlə yanaşı, müxtəlif mikroorqanizmlər, xüsusən bakteriya və viruslar mühüm yer tutur. Qapalı yerlərin kimyəvi maddələrlə çirklənməsində xarici mühit əsas mənbələrdən sayılsa da, bioloji amillərlə çirklənmədə atmosfer havası mühüm rol oynamır.**

Atmosfer havasına qarışan mikroorqanizmlər qidalı mühitin olmaması, saprofit mikrobların antoqonizmi və Günəş radiasiyasının təsirindən qısa zamanda məhv olurlar. Amma yaxşı ventilyasiya olunmayan mənzillərdə, inzibati otaqlarda, auditoriyalarda üzvi və qeyri-üzvi mənşəli tozlarla birlikdə qrip, qızılca, suçiçəyi, COVID-19 virusları; göyöskürək, difteriya, vərəm və s. bakteriyaları bəzən sürətlə artaraq hətta xəstəliyin kütləvi yayılmasına səbəb ola bilir.

Hazırda əhalinin 25%-dən çoxunda mənzillərdəki allergenlərə - müxtəlif mənşəli kimyəvi maddələrə və toz hissəciklərinə (bioloji agentlər) qarşı yüksək həssaslığın olması (sensibilizasiya) aşkar edilib. Həmin tozlar (allergenlər) heyvani mənşəli (yun, ipək, tük, baş kəpəyi, bədəndən ayrılan tullantıların qalıqları, epidermisin pulcuqları, ev həşəratlarının özləri və məhv olmuş cəsədləri və s.), bitki mənşəli (güllərin tozcuqları, qurumuş yarpaqları və ləçəkləri, kağız, pambıq, kətan hissəcikləri və s.) və bioloji mənşəli (bakteriyalar və onların sporları, mikroskopik gənələr və s.) ola bilər. Bu allergenlərdən ev tozlarının tərkibində olan mikroskopik gənələr - dermatofaqoidlər risk amili kimi mühüm yer tutur. Ev tozlarının tərkibində 150-dən çox mikroskopik gənə növü aşkar olunub. Belə ki, 1 q tozun tərkibində bir neçə minə qədər mikroskopik gənəyə rast gəlinir ki, onların da 70-80%-ni Dermatophaqoides petronissinus növünə aid gənələr təşkil edir. Ev tozlarında olan mikroskopik gənələrə qarşı allergiya əsasən bronxial astma, allergik rinit, keratokonyuktivit, dermatit, vaskulit, obstruktiv evstaxit və digər xəstəliklər şəklində özünü göstərir. Sağlam insanlarda dəri-skarifikasiya sınağı ilə mənzil allergenlərinə qarşı sensibilizasiya aşkar olunub. Astmatiklərin mənzil tozlarına qarşı yüksək həssaslığı barədə hələ keçən əsrin 20-ci illərindən məlumatlar var. Amma dermatofaqoid gənələrinin ev tozlarında əsas allergenlərdən biri olması faktı 1964-cü ildə aşkar edilib. Dermatophaqoides petronissinus gənəsi insan dərisinin epidermis qatının epiteli pulcuqları ilə qidalanır və yataq ləvazımatlarında, xalçalarda, yumşaq mebellərdə və örtük divar kağızlarında yaşayır. Əsas allergen quanin antigeni hesab olunur ki, bu da həmin gənələrin ifrazat məhsullarında tapılıb. Allergenlərlə zəngin toz hissəcikləri tənəffüs yoluna daxil olduqdan sonra böyük hissəsi burun boşluğunda tutulur, müəyyən hissəsi isə ağciyərlərin bronx-alveolyar hissəsində olan həssas tosqun hüceyrələrə qədər gedib çatır və patologiya törədir.



Ev tozlarında olan gənələrə qarşı allergiyanın profilaktikasında radikal profilaktik tədbir "Dixlorfos-super-deo" preparatının tətbiqidir. Bu preparat akarsid və allergenlərə məhvedici və dağıdıcı təsir göstərir, orqanizm üçün isə nisbətən az toksiki təsirə malikdir. Mənzil tozları həm də müxtəlif mikroskopik göbələkciklər üçün depo rolunu oynayır. Xüsusən saprofitlər və onların sporları allergen amillər kimi ikinci yerdə dayanır. Bu aspektdən daha mühüm allergen göbələkciklərə Cladosporium, Alternaria, Aspergillus, Penicillium aid edilir. Ətraf mühitdə olan mikroskopik göbələkciklərin sporları, onların ifrazat məhsulları (şirələri) allergen rolunu oynayır, bronxial astma, bronxit, pnevmoniya, dəri-allergik dermatozlar və s. kimi tipik allergik xəstəliklər törədirlər.



Mənzillərin havasında göbələkcik sporlarının miqdarı otaqların temperatur-rütubət rejimindən asılıdır. Onların yaşaması və çoxalması üçün optimal temperatur 20-250C, nisbi rütubət isə 85%-dir. Temperaturun 100C-dən aşağı düşməsi havada sporların miqdarının azalmasına səbəb olur. Otaq havasında göbələk sporları ilboyu olur, amma aprel ayından sentyabradək daha çoxluq təşkil edir. Odur ki, yaşayış mənzillərində və iş yerlərində normal mikroiqlim şəraitinin (temperatur 18-200C, rütubət 40-60%, hava cərəyanı 0,25 m/san, effektli ventilyasiya və insolyasiya rejimi) yaradılması mənzil allergenlərinə qarşı mübarizədə effektli profilaktik tədbirlərdən hesab olunur.

**Şahalı SƏMƏDOV,**
*Qidalanma və tibbi ekologiya kafedrasının dosenti*

# Bilik məbədi

## ATU-nun Əsaslı Kitabxanasının fondu genişləndirilir və elektronlaşdırılır



**Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanası dərslikləri, elmi əsərləri, jurnalları, dövri mətbuat və digər məlumat mənbələrini özündə cəmləşdirən zəngin kitabxanadır. Əsaslı Kitabxana yüksək ixtisaslı tibb kadrlarının hazırlanması və tələbələrin tədris-metodiki ədəbiyyata olan tələbatının ödənilməsinə xidmət etməklə yanaşı, həm də çap olunmuş kitabları mühafizə edən bir xəzinədir.**

Kitabxananın fəaliyyəti, strukturu, eləcə də son illər burada aparılan dəyişikliklər haqqında məlumat almaq üçün kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova ilə həmsöhbət olduq. O bildirdi ki, hazırda Əsaslı Kitabxananın fəaliyyəti bütün şöbələrdə mütəşəkkil qaydada təşkil edilib və müasir tələblərə cavab verir: "Bu gün kitabxana yalnız kitablar və dövri mətbuat materialları ilə deyil, elektron resurslarla da zəngindir. Fondların tərkibi oxucu sorğularına uyğun yeni tibbi ədəbiyyatlarla zənginləşdirilir. Belə ki, son illər ərzində rəhbərliyin diqqət və qayğısı nəticəsində kitabxana fondu xeyli genişlənib, müasir avadanlıqlarla təmin olunub, tələbələrin və professor-müəllim heyətinin mədəni və mənəvi mərkəzinə çevrilib. Əsaslı Kitabxana Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin elmi potensialının yüksəldilməsinə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında tələbələrin tədris-metodiki ədəbiyyata olan tələbatının ödənilməsinə xidmət edir".

Hazırda mövcud beynəlxalq elektron nəşrlərin oxuculara təqdim olunması uğurla həyata keçirilir, yeni bir tətbiqin - kitabxana modulunun üzərində iş aparılır. Burada kitabxananın bazasında olan kitabların siyahısı yerləşdiriləcək. Tələbə ona lazım olan kitabı öncədən sifariş verəcək və iki saat ərzində həmin sifarişi götürə biləcək. Bundan başqa, bəzi dərs vəsaitlərinin PDF formatı da var. Tələbələr həm də bu imkandan yararlanacaqlar. PDF formatı olmayan kitablar isə kitabxanadan əldə ediləcək.

Z.Eminova bildirir ki, elektron kitabxananın yaradılması üzrə işlər davam edir: "İRBİS64+ proqramı əsasında oxucu modulu üzərində iş aparılır. 2022-ci ildə kitabxana fondu cəmi 637 428 olub. Onlardan əsas (elmi) fond 314 205, dərslik 308 490, mübadilə 14 733-dür. Kitabxana fondunun elektron kataloquna 2001 kitab, 1080 qəzet, 4733 jurnal məqalələri daxil edilib. Ötən il kitabxanaya 2504 nüsxə çap məhsulu daxil olub ki, bunlar rəhbərlik tərəfindən alınıb, həmçinin kafedralar, professor-müəllim heyəti, eləcə də ayrı-ayrı təşkilat və müəssisələr tərəfindən hədiyyə olunub və ya mübadilə yolu ilə əldə edilib".

Onun sözlərinə görə, kitabxanada ilboyu müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir: "Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ölkəmizin tanınmış elm-mədəniyyət və ədəbiyyat adamlarının yubileyləri qeyd edilir, onların yaradıcılığından bəhs edən kitab sərgiləri təşkil olunur. Eləcə də il ərzində kitabxananın profilinə uyğun mövzu sərgiləri, bütün əlamətdar hadisələr, tarixi günlərlə bağlı tədbirlər keçirilir. Bundan əlavə, yeni dərs vəsaitlərinin təbliği aparılır. Hər il olduğu kimi, ötən il də universitetimizin görkəmli alimlərinin həyat və fəaliyyətini özündə əks etdirən bir sıra tədbirlər, yubileylər və xatirə gecələri təşkil olunub.

Bildiyiniz kimi, tələbələrin çoxsaylı müraciətlərini nəzərə alan universitet rəhbərliyinin göstərişi ilə 2022-ci ilin may ayından etibarən Əsaslı Kitabxana 24 saat rejimində fəaliyyət göstərir. Hazırda mövcud şərait, təqdim olunan xidmətlər tələbələrin ürəyincədir. Onların xüsusilə imtahanlar ərəfəsində kitabxanaya müraciət etməsi daha yüksək qiymətlər almalarına səbəb olur".



## Şəkər əvəzləyicisi bədən çəkisini azaltmır

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bədən çəkisini normada saxlamaq üçün şəkər əvəzləyicisi istehlakını tövsiyə etmir.**



Belə ki, insanlar şəkər əvəzləyicisindən yoluxucu olmayan xəstəliklərin yaranma riskini azaltmaq və pəhriz saxlamaq üçün istifadə edir, lakin bu təhlükəli ola bilər. Bu tövsiyə şəkər əvəzləyicisinin istifadəsi zamanı böyüklərdə, eyni zamanda uşaqlarda bədən yağının və ya kütləsinin azaldılmasına uzunmüddətli fayda verməyini göstərən tədqiqatların nəticəsinə əsaslanır. Təlimatda qeyd olunub ki, şəkər əvəzləyicisinin istifadəsi böyüklərdə diabet, ürək-damar xəstəlikləri və ölüm riskinin artması kimi arzuolunmaz təsirlərə səbəb ola bilər. ÜST-ün tövsiyəsi mövcud olan şəkərli diabet xəstələrindən başqa hamıya şamil edilsə də, diş pastası, dəri kremləri və bəzi dərmanlar kimi şəxsi qulluq və gigiyena məhsullarına əlavə olunan şəkər əvəzləyicilərinə aid edilmir.

ÜST-ün Qidalanma və Qida Təhlükəsizliyi direktoru Francesco Branca: "Şəkər əvəzləyiciləri pəhriz məhsulları deyil. İnsanlar şəkər qəbulunu azaltmaq istəyirlərsə, meyvə, şəkərsiz qidalar və ya içkilər kimi təbii metodlardan istifadə etmək variantlarını nəzərdən keçirməlidir".

**Azərbaycan Tibb Universiteti 2022/2023-cü tədris ilini bir çox mühüm nailiyyətlərlə başa vurdu. Bəs, ötən müddət ərzində kafedralarımızın fəaliyyətinin nəticələri necə olub? Eləcə də əməkdaşlar yay tətilindən sonra növbəti dərs ilinə hansı əhval-ruhiyyə ilə qayıdırlar? Bu barədə suallarımızı ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva cavablandırıb.**



## Yeni tədris ilinə bol enerji ilə

Ş.Balayeva bildirib ki, yay tətilində istirahət edən əməkdaşlar yeni tədris ilinə xoş əhval-ruhiyyə və enerji ilə dönürlər: "Ötən tədris ilində universitetimizin uğurları sırasında kafedramızın da bir sıra nailiyyətləri olub. Bildiyiniz kimi, bu il cənab Prezidentimizin müvafiq sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev ili" elan olunub. Respublikamızın hər yerində olduğu kimi, universitetimizdə də bu münasibətlə biri-birindən möhtəşəm beynəlxalq miqyaslı tədbirlər keçirilib. Bu mədəni-kütləvi və elmi tədbirlərdə kafedramızın da əməkdaşları aktiv iştirak edib. Ulu Öndərimizin 100 illiyinə həsr olunmuş "İctimai səhiyyə üzrə III Bakı konfransının "İctimai Səhiyyə Qlobal və Milli Prioritet" sessiyasında "Azərbaycanda uşaq əhalisinin son 10 il üçün xəstələnmə dinamikası" mövzusunda məruzə etmişəm. Həmin konfransda əməkdaşlarımızdan Səyyad Gürzəliyev, Minayə Nəbiyeva, Sədaqət Həsənova, Zöhrə İsmayılova və Nərminə



Cəfərzadə də ictimai səhiyyənin müxtəlif sahələri üzrə çıxış ediblər.

Bundan başqa, ötən tədris ilində Rusiyanın Moskva və Sankt-Peterburq şəhərində keçirilən Ümumrusiya beynəlxalq iştiraklı konfranslarında, həmçinin bu yaxında Belarusun paytaxtı Minsk şəhərində keçirilən daha bir beynəlxalq iştiraklı ictimai və elmi-praktik konfransda məruzə ilə çıxış etmişəm".

Kafedra müdiri vurğulayıb ki, bu ilin mart ayında Clarivate Essential "Nəşr üçün jurnal seçimi və analizi" vebinarında (Web of Science, JCR, MJL) iştirak edərək sertifikat alıb və bu bacarıqlar yüksək indeksli beynəlxalq jurnallarda elmi işlərin nəticələrinin çap edilməsi üçün çox mühüm şərtdir: "Əlavə olaraq bildirim ki, aprelin 14-də Bakıda USAİD, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta, TƏBİB, WHO Azerbaijan tərəfindən təşkil edilən "Nəsimi rayonunda kiçik miqyaslı icma yönümlü ilkin səhiyyə xidmətlərinin tətbiqi" proqramı üzrə seminarda mən və kafedramızın dosenti Zöhrə İsmayılova fəal iştirakımıza görə xüsusi sertifikat almışıq. Bundan başqa, mayın 10-da bir mütəxəssis kimi, Bakı Avropa Liseyinin Kiçik Elmlər Akademiyasının XII elmi-praktik konfransında münsiflər heyətində məktəblilərin elmi-tədqiqat işlərinin təqdimatlarının qiymətləndirilməsi işini aparmışam. Tətilə getməzdən öncə isə Avstriyanın Bakıdakı səfirliyi ilə "Uşaqların Sağlam Gələcəyi" qeyri-hökumət təşkilatı arasında tərəfdaşlığın qeyd edilməsi və "Avstriya modeli əsasında Erkən Müdaxilə proqramının inkişafı" layihəsinin təqdimat mərasimində iştirak etmişəm. Eyni zamanda, kafedramızda tədris bacarıqlarının artırılması məqsədilə əməkdaşlarımızdan Zöhrə İsmayılova və Nərminə Cəfərzadə ATU-da xarici ekspertin moderatorluğu ilə təşkil edilən Strateji planlaşdırma üzrə kurslarda olublar".

Diqqəti gələcək planlara yönəldən Şəhla xanım yeni tədris ilində qarşıda duran vəzifələrdən və görüləcək işlərdən də danışıb: "Bu tədris ilində kafedramızda ənənəvi işlərimizlə yanaşı, yeni tədris planlarımız da olacaq. Bildiyiniz kimi, bizim üzərimizə ali ixtisaslı tibb kadrlarının yetişdirilməsi kimi şərəfli və müqəddəs bir vəzifə qoyulub. Ölkəmizdə yüksək ali tibb təhsili verən bu qocaman elm ocağının fəaliyyətinin əsasını isə daim yenilənən və dünya standartlarına tam uyğun aparılan gündəlik tədris işi təşkil edir. Bununla əlaqədar olaraq yeni tədris ilində dərs proqramlarının beynəlxalq tibb təhsili standartlarına uyğunlaşdırılaraq yenidən işlənməsi qarşımızda duran birinci vəzifədir. Bundan başqa, il ərzində əməkdaşlarımız tərəfindən bir neçə dərslik və dərs vəsaitlərinin hazırlanıb çap edilməsi nəzərdə tutulub. Təbii ki, universitetimizdə təşkil olunacaq mədəni-kütləvi və elmi tədbirlərdə fəal iştirak etmək də kafedramızın ümumi iş planına daxildir".


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0014
Sayı 800